

# Türkiyəli xalça taciri Ercan Açıkel: "Türk xalçaları bütün dünyada etiraf olunmuş maddi-mənəvi dəyərlərdir"

*Hazırladı: Tünzalə Babayeva*

Əslən Türkiyənin qədim tarixə malik Niğdə şəhərindən olan Ercan Açıkel 40 ildir ki, Bodrumda xalça ticarəti ilə məşğuldur.

"Xalçaçılıq bizim ailə sənətimizdir. Anam peşəkar toxucu idi, bir-birindən zərif, ecazkar xalçalar toxuyardı. Atam isə xalça ticarəti ilə məşğul olardı. Gözümü açandan xalçaların sirli-sehrli aləminə düşmüşəm. Bu aləmdən ayrıla bilməmişəm, həyatımı xalçaçılıqla bağlamışam. Sənətimi qəlbən sevirəm. Xalçaçılıq mənim üçün həm də hobbidir. Həyatımı onsuz təsəvvür etmirəm. Xalçalar məni həyəcanlandırır, qayğılarımı azaldır. Onlar mənim maraqlı həmsöhbətim, sirdaşımdırlar. Xalçalarla sevincimi, problemlərimi bölüşə bilirəm. Dükanımda əsasən türk xalçalarının satışı ilə məşğul oluram. Türkiyədə Uşak, Berqama, Ladik, Konya, Bünyan kimi məşhur xalçaçılıq mərkəzləri var. Məsələn, Adanada əsasən kilimlər toxunur. Türkiyə tarixən saray xalçaçılığının inkişaf etdiyi ölkələrdəndir. Böyük ölçüləri ilə seçilən bu saray xalçaları, bir qayda olaraq, ipəkdən toxunurdu. Bu ənənə indi də uğurla davam etdirilir. Türkiyə xalçaçıları xarici ölkələrdən böyük xalça sifarişləri alırlar. Məsələn, Uşakda Amerikadan və Böyük Britaniyadan olan sifarişçilərdən alınan xüsusi sifarişlər əsasında xalçalar toxunur. Türk xalçaları bütün dünyada etiraf olunmuş maddi-mənəvi dəyərlərdir. Son illərdə xalçaçılıq işində bir qədər tənəzzül, geriləmə hiss olunur. Bu da müasir dövrün bir tendensiyasıdır. Çünki gənc nəsil əsasən saya, sadə rəngli modern xalçalara üstünlük verir. Klassikanı dəyərləndirmir. Lakin düşünürəm ki, bu hal zamanla dəyişəcək. Bir müddətdən sonra insanlar yenə də evlərinə istilik, rahatlıq, eləcə də fərqli ab-hava bəxş edən klassik çeşnili xalçalara üstünlük verəcəklər.

Azərbaycana ilk dəfədir ki, səfər edirəm. Əslində, bu səfər haqqında çoxdan düşünürdüm. Paytaxtınızı çox bəyəndim. Fövqaladə bir şəhərdir. Düzü, Bakını bu dərəcədə gözəl təsəvvür etmirdim. Şəhərin geniş meydanları, parkları göz oxşayır. Bakı müasirliklə keçmişin harmoniyasında yaşayır. İçərişəhərin dar, dolanbac yolları insanı başqa - sirli, müəmmalı bir aləmə aparır. Bu vaxta qədər çox ölkələrdə olmuşam. Amma burada qəriblik çəkmədim. Bu mənim "vətəndən vətənə səfərim" oldu. "Azər-İlmə" haqqında danışmaq mənə xüsusi zövq verir. Həmkarım xalçaçı-ekspert Vidadi Muradovla dostluğumuzun maraqlı tarixçəsi var. "Azər-İlmə"də gördüklərim isə məni yaxşı mənada təəccübləndirdi.








Bura sadəcə bir sərgi salonu və ya emalatxana deyil. Burada xalçanın "taleyi"ni izləmək imkanı qazanırsan. Bütün prosesləri - iplərin boyanmasını, xalçaların toxunmasını, yuyulmasını, dolablanmasını bir məkanda görmək mümkündür. Bu, böyük ürəyin, böyük zəhmətin bəhrəsidir. Bütün dünya bu məkandan xəbərdar olmalıdır. "Azər-İlmə" nin nəşrləri Azərbaycan xalçaçılıq sənətinin təbliğatında müstəsna rol oynayır."Azər-İlmə"də gözəl bir halın şahidi oldum. Burada Azərbaycanın qədim, nadir çeşniləri əsasında təzə xalçalar toxunur. Bu, sevindirici haldır. Xalça mədəniyyətinin qorunub saxlanılması, gələcək nəsillərə ötürülməsi üçün əvəzolunmaz xidmətdir. Hər bölgəyə aid ayrıca kitablar, broşürlər, kataloqlar çap olunur. "Azərbaycan xalçaları" jurnalı isə beynəlxalq "Halı" jurnalından məzmun və tərtibat baxımından heç də geri qalmır. Bu, heç də hər kəsin öhdəsindən gələ biləcəyi iş deyil. Mən Azərbaycan xalçalarının vurğunuyam. Onlar incə və rəngarəngdirlər. Zənnimcə, onların ən başlıca xüsusiyyəti kompozisiyalarında həndəsi elementlərin bolluğudur. Bu həndəsi elementlərin dünyada tayı-bərabəri yoxdur. Onları heç bir xalça ilə səhv salmaq mümkün deyil. Bu xüsusiyyətinə görə Azərbaycan xalçaları dünya kolleksiyaçıları arasında çox məşhurdur. Sizin xalçaların rəngləri də maraqlıdır. Hər bölgənin öz "qırmızısı", "yaşılı", "sürməyisi" olur. Rənglər canlıdır, insana sevinc gətirir. Daha çox Şirvan, Qazax-Borçalı, Gəncə, Qarabağ xalçalarını bəyənirəm. "Əjdahalı" sumaxlara isə söz ola bilməz. Uzun illər Azərbaycan xalçaları dünyada "Qafqaz xalçaları" adı ilə tanınırdı. Amma son zamanlar sizdə dövlət səviyyəsində aparılan işlərin nəticəsi olaraq bu ədalətsizlik aradan qaldırılmışdır. Bu işdə "Azər-İlmə"nin əməyini də qiymətləndirmək zəruridir. Burada hər toxunan xalçanın üzərində "Azərbaycan" sözü yazılır, hər bir nəşrdə xalçalarınız öz həqiqi adları ilə təqdim olunur. Bakıda olduğum müddətdə Azərbaycanda ilk dəfə Avropa Oyunlarının keçiriləcəyini eşitdim. Bu oyunlarla bağlı ölkənizə minlərlə insan gələcək. Onlar mütləq milli sərvətiniz olan xalçaçılıqla tanış olmaq imkanı qazanacaqlar. Bu tədbir dünyanı Azərbaycanla, onun zəngin mədəniyyəti ilə tanış etmək üçün gözəl bir imkandır. Ümid edirəm ki, "Azər-İlmə" bu işlərdə öz imkanlarından bacarıqla istifadə edəcək".